**VAQİF YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# Günümüzün Güney ədəbiyyatı antologiyası



**Filologiya elmləri doktoru Esmira Fuad neçə illərdir XX-XXI əsrlər Güney ədəbiyyatını tədqiq edir. Arazın o tayında yaşayan Azərbaycan şairlərinin yaradıcılığı haqqında məqalələr yazır, onların əsərlərini toplu və almanaxlar vasitəsilə ədəbi ictimaiyyətə təqdim edir. Esmira xanım böyül şair M.Şəhriyarın nüfuzlu tədqiqatçılarından biridir.**

"Günümüzün Güney ədəbiyyatı antologiyası" - "Poeziya"... Buraya İran İslam inqilabından sonra ədəbiyyata gəlmiş Cənubi Azərbaycan şairlərinin ana dilində və bir-birindən fərqli üslublarda qələmə aldıqları şeirlər daxil edilmişdir. 1030 səhifədən ibarət bu antologiya son 30-35 il ərzində Cənubi Azərbaycanda anadilli poeziyamızın durumunu, inkişaf yollarını, mövzu-ideya və sənətkarlıq məsələləri haqqında tam və dolğun təəssürat yaradır. Əlbəttə, uzun müddət bizdə belə bir fikir formalaşmışdır ki, cənubda ədəbi proses ləng inkişaf edir, şairlər ancaq fars dilində yazıb-yaradırlar. Ancaq ustad Şəhriyarın, Səhəndin və başqa şairlərin öz ana dilində qələmə aldıqları şeirlər, poemalar bu təsəvvürü aradan qaldırdı. Esmira Fuadın tərtibçi-müəllif kimi hazırladığı bu kitab məhz cənubda yeni, özü də sürəkli bir prosesin formalaşdığını sübut edir. Ən maraqlısı odur ki, bizim az çox tanıdığımız şairlərlə yanaşı, tanımadığımız şairlərlə, onların yaradıcılığı ilə tanış oluruq.

### *Bəs Cənublu şairlərimiz nədən yazırlar,*

onların şeirlərində hansı problemlər əks olunur və ümumiyyətlə, nə yazmaq yox, həm də necə yazmaq məsələsi də bizi düşündürür. Bu düşüncələrimizi aşağıdakı kimi qruplaşdıraq.

**1.Azərbaycan mövzusu Cənub şairlərinin şeirlərinin əsas, aparıcı xəttini təşkil edir. Bu mövzu bir neçə yaxəyə ayrılır. Ümumi tərənnüm, Vətənin - Azərbaycanın şanlı tarixi keçmişi, o taylı-bu taylı Vətənimizin qədim şəhərləri, abidələri, dilimizin gözəlliyi, Vətənin bu günkü halı həmin şeirlərdə əks olunur. Eyni zamanda, cənublu şairlər şimalda baş verən hadisələrə də biganə qalmırlar. Qarabağda baş verən olaylar da onları dərindən həyacanlandırır. Ümüd Zəncanlı yazır:**

*Xəbər verin Qarabağdan,*
*Bu nə səsdir yenə dağlar.*
*Hay düşübdür hər tərəfə,*
*Atəş istər sönə dağlar.*

*Qarabağdan xəbərsizik,*
*Ayrılıqdan yanan bizik*
*Bakı, Şəki, biz Təbrizik,*
*Ana vətən sinə dağlar.*

*Ay ilk bahar ağlar, gülər,*
*Xocalıdan xəbər gələr,*
*Ağdam, Laçın bayram eylər,*
*Xalq yurduna dönə, dağlar.*

*Ümüd gedir Xankəndinə,*
*Daşnak düşə kəməndinə.*
*Bir-bir çəkə öz bəndinə,*
*Şuşa çıx günə, dağlar.*

Ümüd Zəncanlı "Qarabağ" şeirlərində "Qarabağ bizimdir!" və Qarabağa aid bayatılarda eyni hissi, duyğunu əks etdirir. Digər cənublu şairlərin şeirlərində də Qarabağa sevgilər izhar olunur. Ümumiyyətlə, Cənub şairlərimizin şeir və poemalarında Vətən obrazı ayrıca cənub və ayrıca şimal ərziləri ilə məhdudlaşmır. Əgər bir cənublu şair Təbrizdən yazırsa, bu onun böyük Vətənimizin ayrılmaz parçası olan bir qədim şəhərə məhəbbətin təzahürü kimi qəbul edirik. Hətta şikayət motivləri olsa da...

**Hanı,**
**Hanı o gün?**
**Hanı o biz?**
**Hanı o Təbriz?**

**(Süsən Nəvadeye Rəzi)**

Behbud Muradi Elçibəy İçərişəhərə bir poema həsr edib. Və hiss olunur ki, bu şair İçərişəhərdə olmuş, onun qədimliyi və misilsiz arxitekturası qarşısında heyrətini gizlədə bilməmişdir. Həm də bu poemada xalqın tarixi vərəqlənir bu gündən söz açılır.

*Canımda ağrı var hicran qəmindən,*
*Zamanın xalqıma acı sərindən,*
*Neçə kəlmə deyim söz aləmindən,*
*Bəlkə də səsimi eşitsin Xəzər,*
*Səni deyib gəldim, İçərişəhər.*

*Xəzərin o tayı, bu tayı bizim,*
*Nəvai bizimdir, Xətai bizim,*
*Yunis Əmrə bizimdir, Nəsimi bizim,*
*Xatın xanımların xanımı Həcər,*
*Səni deyib gəldim, İçərişəhər.*

*Döşümdə yeri var ahın, kədərin,*
*Quzu qurbanıyam, qəza-qədərin,*
*Yarama əl vurma, dərindir dərin,*
*Nə qədər alınmaz Şuşam, Kəlbəcər,*
*Səni deyib gəldim, İçərişəhər.*

Bu poemada İçərişəhər Vətənin obrazı kimi canlanır. Səid Muğanlının "Adım həyacandır" şeirində də Vətən bütöv (o taylı -bu taylı) obraz kimi vəsf olunur. Babək, Beyrək kimi qəhrəmanlar xatırlanır, Kür, Araz çaylarının adı çəkilir. Müslüm Moqamayevin, Üzeyr Hacıbəylinin ölməz sənətindən söz açılır.

Azərbaycan dili də Cənub şairlərinin şeirlərində vəsf və tərənnüm obyektinə çevrilir. Fəriba İbrahimi Afaq "Ana dilim" şeiri bu baxımdan uğurlu bir nümunədir:

*Sənlə yaşayıram, səninlə varam,*
*Həyat peykərimə döz, ana dilim.*
*Sənsən əski günüm, gələcəyim də,*
*Yabançı sözlərə döz, ana dilim.*

*Həyat incəliyin gül budağında,*
*Şirin nəğmələri yar dodağında,*
*Şeir çiçəklərin, muğam başında,*
*Söyləsən sevimli söz, ana dilim.*

*Söylə dərdimizi, tap dərmanında,*
*Güvənək qüvvəsinə, ellər yanında,*
*Qorqud Dədəmizin denən şanından,*
*Aşıqlar sazından söz, ana dilim.*

Məsud Harayın şeirində isə türkcəmizin təmizliyindən söz açılır. Vətən mövzusunda yazılan şeirlərin içində Kiyan Xiyavın "Təbriz və biz - ikili yalnızlıq" poemasından söz açmamaq insafsızlıq olardı.

### *Bu poema*

öz fəlsəfi ahəngi ilə seçilir. Bu poemada Azərbaycançılıq ideologiyası əsasdır. Vətənin tarixi keçmişi və bu günü arasında mənəvi körpülərdən danışılır.

Bizə yaxşı tanış olan Aqşin Ağkəmərlinin "Təbrizim", "Murov dağları", "Araz", "Vətən", "Qəbələ", "Gəncə", "Qarabağ", "Xocalı", şeirləri haqqında onu deyə bilərik ki, bu almanaxda toplanan poetik nümunələr içində öz bədii səviyyəsi ilə xüsusilə seçilir. "Şəhidlər" şeirindən bu misralara diqqət yetirin:

***Bakımız - Təbrizimiz -***
***Bütöv Azərbaycanımız***
***Burdan keçir...***
***Bura şəhidlər Xiyabanıdır,***
***Səttarxanın, Bağırxanın,***
***Xiyabaninin***
***Yoludur bu yol***
***Bütöv Azərbaycan,***
***Turan, Türkistan***
***Burdan keçir...***
***Bura şəhidlər Xiyabanıdır.***

**2. Antologiyada həyat, cəmiyyət, dünya, insan münasibətləri, təbiət sevgisi, sevgi motivləri də əsas yer tutur. Bir sözlə, bizim müasir Azərbaycan poeziyasına xas olan bir çox xüsusiyyətlər (xüsusilə, həyati mövzular, reallıqların əksi, insan və cəmiyyət problemləri) cənub şairlərinin şeirlərində də əks olunur.**

Əli Reştəvər Qayıbın "Ana" şeiri ilə Aydın Yenilməzin "Ana" şeiri arasında mövzuya münasibətin fərqli cəhətləri üzə çıxır. Birinci, müəllif ananı tərənnüm - vəsf obyektinə çevrir. "Varlığı aləmə bəzək yazılıb, Dürüşü sureyi Qurandır ana... İlahi məhəbbət, ilahi ülfət, candır, candır, candır, candır ana". İkinci müəllif isə Ana obrazını lalə ətri, dağ dəniz və Vətən obrazları ilə eyniləşdirir: "Anadır Vətənim, anadır dilim" cənublu şairlərimizin şeirlərində düşüncə arealı da genişdir, yəni şeirdə fikir, düşüncə, rasionallıq aparıcı xəttə çevrilir: məsələn, Xosrov Barışan bizə məhz düşüncə şairi təsiri bağışladı. Onun "Qəbiristan" şeirinə diqqət yetirin:

***Sənin eşqini də***
***duymadım ürəyimə***
***Ah.... ah,***
***necə də yaman***
***ağrı verir insana***
***bir qəbristanlığı***
***öz içində daşımaq***

Yeri gəlmişkən, qeyd edək ki, Xosrov Barışın öz şeirlərində maraqlı təşbihlər diqqəti cəlb edir. Onun "Hələ demə" şeirində "Saçların Təbrizin küçələridir, pərişan, tikanlı, dolaşıq və qara", "hələ gözlərini demə... sənin o silah gözlərin" kimi orijinal təşbehlər var. Onun "Azad gözəl" şeirini isə müasir şeir necə olmalıdır sualına tutarlı cavab hesab etmək olar.

*Bilirəm hər şair*
*ən gözəl şeirini yazmadan,*
*ölümə mübtəla olub*
*şair olar.*
*Ancaq sən,*
*azadlıq kimi gözəlsən,*
*gözəllik kimi azad*
*Sən yaza bilmədiyim*
*şeirim qədər gözəlsən*
*və düşünə bilmək qədər azad...*
*Mən isə yalnız şairəm -*
*hər an səni yaradıram,*
*Səndən yaranıram...*

Təbii ki, Cənub şairlərinin ən çox sevdiyi mövzulardan biri eşq - məhəbbət mövzusudur. Vüqar Nemətin "Mən heç aşiq olmadım", "Səni aradım", Bulud Muradinin "Və eşq və bu mahnı", Kərim Əhmədiyan Şahidin "Sən gələndə", Maral Təbrizinin "Aşiqin vəsiyyəti", Həmidrza Hüseyninin "Sən" şeirləri Duman Ərdəlin "Bulud" sevgidəki anımlar, həyacanları əks etdirir.

*Əgər bu buludların altında*
*saçlarımız ağlarsa,*
*Əgər saçlarımızın üzərində*
*buludlar yox olursa,*
*başmaqlarımız yırtılırsa,*
*buludların altında*
*sevdiyimiz köynək*
*təmizlik köhnəsinə çevrilirsə,*
*əgər bu buludların altında*
*biz iki baş, iki bədəniksə,*
*gəl sevgiylə yortlayaq özümüzü,*
*sevməmişdən ayrılaq.*

Cənublu şairlər həm hecada, həm də sərbəstdə, həm də əruzda yazırlar. Antologiyada sərbəst şeirlərlə heca şeirləri təxminən eyni kəmiyyətdədirlər.Əruz isə azdır. Ancaq bütün bunlar şeirlərin keyfiyyətini təyin etmir. Təbii ki, bu antologiyada zəif və ortabab şeirlər də diqqəti cəlb edir.

**Tərtibatçı müəllifin əməyini yüksək qiymətləndirir. Arzumuz budur ki, o, Cənubda yaşayan şairləri bizə tez-tez tanıtsın.**